***UOT-811.11-112***
***Səhifə:67-71***
*https://doi.org/10.59849/2663-8967.2023.2.67*

***Nuranə Hüseynova***
***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***
**nuranateacher@gmail.com**

# FERDİNAND DE SÖSSÜRÜN ETİMOLOJİ GÖRÜŞLƏRİ

## XÜLASƏ

Məqalədə Ferdinand de Sössürün etimoloji görüşlərindən bəhs olunur. Burada böyük İsveçrə aliminin etimologiya sahəsindəki əsərləri sadalanır, onlar analitik təhlil süzgəcindən keçirilir. Məqalədə Ferdinand de Sössürün etimologiya sahəsindəki nəzəri fikirləri ümumiləşdirilir, bu fikirlərin etimologiyanın fundamental məsələlərinin həllindəki mühüm rolu göstərilir. Araşdırmada sübut olunur ki, Ferdinand de Sössür etimoloji araşdırmaların ilkin nəzəri-metodoloji bazasını yaratmışdır. Tədqiqatda Ferdinand de Sössürün etimologiya sahəsindəki novator fikirlərinə mühüm yer ayrılır. Qeyd olunur ki, Ferdinand de Sössürün dilçilik fəaliyyətinin mühüm bir hissəsi etimoloji araşdırmaların nəzəri məsələlərinə, metodoloji konsepsiyalarına həsr olunmuşdur. Məqalədə dahi alimin yaradıcılığındakı öncəgörücülüyün əsasında duran larinqal nəzəriyyənin önəmi də oxucuların diqqətinə çatdırılır. Burada sübut olunur ki, Ferdinand de Sössür hind-Avropa və ümumilikdə dünya dilçiliyində böyük əks-səda yaradan larinqal səslər nəzəriyyəsi ilə nəzəri və ümumi dilçilikdə fundamental bir konsepsiyanın əsasını qoymuşdur. Məqalədə göstərilir ki, het dilinin yazıları oxunandan sonra Ferdinand de Sössürün larinqal nəzəriyyəsi hind-Avropa dillərindəki ilkin səslərin rekonstruksiyasında mühüm dönüş nöqtəsi oldu.

***Açar sözlər:*** *dilçilik, Sössür, etimologiya, rekonstruksiya, ilkin forma*

**Giriş:** Dünya dilçiliyi tarixində ən qədim dilçilik məktəblərinin yarandığı qədim hind dilçiliyində etimologiya ilə bağlı ilkin anlayışlar ifadə olunurdu. Vaxtilə hind dilçiliyində dilçiliyin müxtəlif sahələrindən bəhs edən vedalarda etimologiya ilə bağlı da fikirlər irəli sürülmüşdü. Deməli, etimologiyanın tarixinin Orta əsrlərdə isə Roma dilçilik məktəbində Varron, Əliy Stilo, Seneka, Avqustin, Trifon, Niqidiy Fiqul və başqaları etimologiyanın müxtəlif problemləri ilə məşğul olmuşdular. Onlar etimologiyaya "həqiqi", yəni ilkin mənaların öyrənilməsi kimi baxırdılar.

Etimoloji araşdırmaların nəzəri və metodoloji əsasları haqqında ümumi dilçilikdə Ferdinand de Sössür, Antuan Meye, Emil Benvenist, Yeje Kuriloviç, Pizani, Herman Paul, Beletski, Qertsenberq, J.Vandriyes, G.Bonfante, N.Pott, N.Marr, Trubaçev, A.Potebnya, Ənvər Makayev, S.Starostin, H.Birinbaum, A.Dıbo, V.Toporov subyektiv müddəalar irəli sürmüşlər.

Azərbaycan dilçiliyində isə bu sahə ilə bağlı Vaqif Aslanov, Ağamusa Axundov, Aydın Məmmədov, Yunis Məmmədov, Samət Əlizadə, Firudin Cəlilov, Buludxan Xəlilov, Baba Məhərrəmlinin araşdırmaları vardır.

Etimologiyanın inkişafında daxil bərpa metodunun tətbiqi böyük rol oynayır. Baxmayaraq ki, XIX əsrdə müqayisəli-tarixi metodun tətbiqi ilə qohum dillərin materialları əsasında tədqiqatlar sürətləndi. Nəticədə, eyni dil ailəsinə aid dil faktlarının praformalarının bərpası üçün unikal bir metod müəyyənləşdirildi. Ancaq eyni zamanda daxil rekonstruksiya metodunun yaranması və tətbiqi ilə də etimologiya sahəsində bir çox uğurlara imza atılırdı.

Müasir dövrün etimoloji araşdırmalarının sərhədləri çox genişdir. Bu prosesdə tipoloji müqayisələr də mühüm rol oynamaqdadır. Son dövrlərin etimoloji araşdırmalarında ulu dil konsepsiyasına önəm verilməkdədir. Ulu dili və ya protodili bərpa etmək cəhdləri etimoloji araşdırmaların miqyasının genişləndiyini sübut edir. Müasir dilçilikdə etimoloji araşdırmalara linqvokulturoloji aspektdən də yanaşılır.

Vaxtilə etimologiya yarananda, sadəcə, bir dilin materiallarından istifadə olunurdu. Sonralar tədricən qohum dillərin materialları müqayisəyə cəlb olunmağa başlanıldı. İndi isə hətta qohum olmayan dillərin analoji materiallarının müqayisə olunması ilə rekonstruksiyaların sərhədi daha da genişləndirilmişdir.

Hər bir etimoloji araşdırmada fonetik, morfoloji və semantik amillər kompleks şəkildə nəzərə alınmalıdır. Çox zaman etimoloji təhlildə sözlərin semantik qruplar şəklində tədqiqata cəlb edilməsi effektli nəticə verə bilir. “Etimoloji təhlil zamanı leksik paralellikləri, semantik uyğunluqları, sözün quruluş modellərini nəzərə almaq, dili tədqiq edilən xalqın hansı xalqlarla təmasda olduğunu, etnolinqvistik xüsusiyyətlərini, etnopsixologiyasını bilmək lazımdır” [1, s. 48]. Müasir dövrdə etimologiya sahəsində aparılan tədqiqatlarda tarixi-tipoloji istiqamətli araşdırmalara üstünlük verilir. Etimoloji araşdırmaların mahiyyətində dayanan rekonstruksiya prosesinin əsas hədəfi protodili bərpa etməkdir.

Hind-Avropa dilçiliyində Ənvər Makayev, Emil Benvenist, O.N.Trubaçev, Yeje Kuriloviç, Antuan Meye və digərlərinin etimoloji araşdırmaların nəzəri aspektləri haqqında müddəaları vardır. Ancaq hind-Avropa dilçiliyində etimologiyanın nəzəri əsasları ilk dəfə fundamental formada Ferdinand de Sössürün yaradıcılığında qoyulmuşdur. Onun sonradan şagirdləri tərəfindən nəşr edilən və mühazirə mətnlərinə əsaslanan “Ümumi dilçilik” kursunda etimoloji qanunauyğunluqlar, rekonstruksiyaların nəzəri əsasları, etimoloji araşdırmaların məqsəd və vəzifələri, elmi etimologiya ilə xalq etimologiyasının analoji və diferensial məqamlarına toxunulmuşdur.

Ferdinand de Sössür semiotika, strukturalizm sahəsində bir çox yeni ideyaların müəllifidir. Ferdinand de Sössürün fikrincə, “retrospektiv tədqiqat müqayisəyə əsaslanan rekonstruksiya üzərində qurulur” [2, s.249]. O, haqlıdır, çünki yüzlərlə tədqiqat artıq çoxdan sübut edib ki, məhz müqayisə metodu ilə rekonstruksiyaların inandırıcılığını təsdiq etmək olur.

Məlumdur ki, etimologiyanın əsas məsələlərindən biri elmi etimologiya ilə xalq etimologiyasının sərhədlərinin dəqiq müəyyən edilməsidir. Ferdinand de Sössürün yaradıcılığında xalq etimologiyası anlayışının şərhi də verilmişdir. Alim yazır ki, “xalq etimologiyası dildə patoloji hadisədir, o, yalnız nadir hallarda özünü göstərir və danışanların çətinliklə mənimsədikləri nadir sözlərə, texniki terminlərə və ya başqa dillərdən alınmalara toxunur. Əksinə, analogiya dilin normal funksiya daşımasına aid ümumi hadisədir. Bəzi tərəflərinə görə oxşar olan bu iki hadisə mahiyyətcə bir-birinə ziddir. Və onları ciddi şəkildə fərqləndirmək lazımdır” [2, s. 316]. O, xalq etimologiyasının müxtəlif aspektlərindən bəhs etmişdir.

Ferdinand de Sössür dilin antropologiyasından bəhs edərkən dil və irq, etnizm, linqvistik paleontologiya məsələlərinə önəm verir. Onun etimoloji baxışlarında rekonstruksiyaların etibarlılıq dərəcəsi, mötəbərliyi aspektləri xüsusi qeyd olunur [2,s.385]. Əgər biz onun etimoloji görüşlərini ümumiləşdirsək, bu qənaətə gəlmək olar ki, Ferdinand de Sössür etimologiya anlayışına çoxaspektli baxmışdır. Belə ki, onun linqvistik fəlsəfəsinə görə, etimologiyaya həm də paleontologiya, antropologiya aspektlərindən baxılmalıdır. Müasir tədqiqatlar bu fikirlərin doğruluğunu bir daha təsdiq edir.

Ferdinand de Sössür qeyd edir ki, “rekonstruksiyalara yenidən baxılmalı olsa belə, biz bütövlükdə öyrəndiyimiz dil və onun mənsub olduğu dil tipi haqqında təsəvvürlərə malik olmaq istəyiriksə, onlarsız keçinmək olmaz. Rekonstruksiya – elə bir vacib alətdir ki, onun köməyi ilə nisbətən asanlıqla sinxron və diaxron sıraya aid olan çoxlu ümumi faktlar müəyyən edilir” [2,s. 385].

Ferdinand de Sössür etimoloji rekonstruksiyalardan geniş şəkildə bəhs edir. O, eyni zamanda linqvistik paleontologiyadan da söhbət açır. Ferdinand de Sössür G. Xirt və İ.Şmidtin linqvistik paleontologiyadan yararlandığını qeyd edir. Onun qeydlərinə görə, vaxtilə Adol Rikte hind-Avropa dillərinin kökünü, mənşəyini müəyyənləşdirmək üçün onların flora və faunasını öyrənmişdir (2,s. 391). Bu fikirlər bir daha sübut edir ki, etimoloji araşdırmanı yalnız dilçiliklə məhdudlaşdırmaq olmaz.

Ferdinand de Sössür rekonstruksiyanın səciyyəsi və məqsədləri haqqında danışarkən müqayisə metodunun xüsusi əhəmiyyət daşıdığını önə çəkir. O qeyd edir ki, “müqayisə dilçilikdə mexaniki əhəmiyyətli olmayıb izah üçün material verə biləcək məlumatların tutuşdurulmasını tələb edir. La-

kin müqayisə həmişə hansısa müəyyən formulla ifadə olunub əvvəl mövcud olan nəyisə bərpa etməyə cəhd olunan fərziyyəyə gətirib çıxarmalıdır; müqayisə həmişə formaların rekonstruksiyası ilə sonuclanmalıdır" [2, s.382].

Ferdinand de Sössürün yaradıcılığında diaxronik dilçiliyin müxtəlif aktual məsələlərindən bəhs olunmuşdur. Ferdinand de Sössür düzgün olaraq sanskrit dilinin hind-Avropa dilləri üçün protodil kimi qəbul edilməsinin əleyhinə çıxır [2,s.377]. Çünki XIX əsrdə müqayisəli-tarixi isiqamətli araşdırmalarda daha çox bu konsepsiyaya üstünlük verilirdi.

Ferdinand de Sössürün vaxtilə yaratdığı larinqal nəzəriyyə sonralar hind-Avropa dillərinin etimoloji baxımdan araşdırılmasına müstəsna rol oynamışdır. Belə ki, bu nəzəriyyəyə görə, qədim hind-Avropa ulu dilində boğaz samitləri işlənmişdir. Həmin kök samitlər sonralar dilönü samitlərlə əvəz edilmişdir. Bu nəzəriyyə ilkin söz köklərinin tələffüzü zamanı artikulyar inkişafı göstərir.

Məlumdur ki, etimoloji araşdırmaların mahiyyətində kök formaların bərpası, yəni rekonstruksiyası dayanır. Bu baxımdan Ferdinand de Sössürün rekonstruksiya haqqındakı nəzəri fikirlər aktuallığı ilə diqqəti cəlb edir O, rekonstruksiyaların mötəbərilik, etibarlılıq dərəcəsi haqqında qeyd edir ki, "bərpa edilmiş formaların bəziləri tamamilə doğrudur, o biriləri mübahisəli, yaxud ümumiyyətlə, şübhəlidir. Bununla belə, indicə gördüyümüz kimi, bütöv formaların inandırıcılıq dərəcəsi həmin formaların sintezində iştirak edən xüsusi rekonstruksiyalara aid nisbi inandırıcılıqdan asılıdır" [2, s.386].

Ferdinand de Sössür haqlı olaraq söz köklərinin rekonstruksiyası prosesində səs amilini xüsusi vurğulayırdı. O, fonoloji amillərə mühüm önəm verirdi. Sössür bildirir ki, etimologiya ancaq sözün izahı ilə məhdudlaşmır. O eyni zamanda qohum söz qruplarının tarixi, prefiks və suffikslərin də tarixi ilə məşğul olur [9, s.225].

Ferdinand de Sössür yazırdı ki, "rekonstruksiyanın məqsədi, nəticə etibarilə kifayət qədər gülməli ola biləcək bütöv formaların bərpası yox, doğruluğa qəbul olunan bütöv bir sıra nəticələrin hər bir halda müəyyən edilən yekuna uyğun olaraq sanki kristiallaşdırılması və ya kondensasiya edilməsidir, qısa desək, rekonstruksiyanın məqsədi bizim elmimizin nailiyyətlərinin təsdiqlənməsidir" (2, 385).

Ferdinand de Sössürün əsas etimoloji görüşləri onun "Hind-Avropa dillərində ilkin saitlər sistemi haqqında memuar" adlı məqaləsində irəli sürülmüşdür [9]. 1878-ci ildə yazılan bu elmi məqalə 1879-cu ildə çap edilmişdir [13].

Ferdinand de Sössürün bu elmi araşdırması dilçilik elmində öncəgörücülük hesab olunur. Çünki məhz həmin araşdırmada o, qədim protohind-Avropa dillərində larınqal ***a*** səsinin olması fərziyyəsini irəli sürmüşdü. O zamanlar həmin fərziyyəyə skeptik yanaşmalar olmuşdur. Ancaq het dili kəşf olunandan sonra onun fərziyyəsi öz təsdiqini tapdı. Belə ki, məhz het dilində Sössürün bərpa etdiyi larinqal *a* səsinin paraleli olan $h^1$ səsinin olması onun hipotezasının nə qədər doğru olduğunu elmi ictimaiyyətə sübut etdi. Larinqal nəzəriyyənin kəşfi hind-Avropa dilçiliyində etimoloji araşdırmalar sahəsində bir çox irəliləyişlərə səbəb oldu.

Ferdinand de Sössürün sonant koofisentləri (yəni samit əmsalları) ideyası larinqal saitlərin varlığını sübut edirdi. Ferdinand de Sössürün bu kəşfi XX əsrin 30-cu illərində Emil Benvenist və Yeje Kuriloviç tərəfindən təsbit olunan hind-Avropa söz kökləri haqqında olan fundamental nəzəriyyənin təşəkkülünə səbəb oldu [9, s.301]. Ferdinand de Sössürün konsonant koofisenti (əmsalı) nəzəriyyəsi hind-Avropa söz kökündəki quttural vokalizmin olmasını fikrini dəstəkləyirdi [10, 310]. Yəni o, fərziyyə formasında qədim hind-Avropa ulu dilində qırtlaq samitlərinin olduğunu və bu səslərin sonradan dilönü istiqamətinə tansformasiya olunduğunu iddia edirdi. Bu iddialar zaman keçdikcə öz təsdiqini tapmış oldu. Ferdinand de Sössür retrospektiv metoddan istifadə edərək, antropologiya və etnoqrafiyanın etimoloji araşdırmalardakı mövqeyini isbat etmiş oldu.

Ferdinand de Sössür rekonstruksiyada müqayisə metodunu aparıcı hesab edirdi. Eyni zamanda o, rekonstruksiyada müqayisəyə cəlb olunan dil vahidləri arasında morfoloji uyğunluğu ən mühüm amillərdən biri kimi qiymətləndirirdi [9, s.255].

***Nəticə.*** Etimologiya elmi dilin fonetikası və fonologiyası ilə sıx bağlıdır. Protodilin sait və samitlər sistemi haqqında olan bilgilər etimoloji araşdırmalarda açar rolunu oynayır. Buna görə də

Ferdinand de Sössürün hind-Avropa dillərindəki ilkin sailər haqqındakı fundamental fikirləri sonralar hind-Avropa dilçiliyində etimoloji araşdırmalar üçün bir mayak rolunu oynamışdır.

**ƏDƏBİYYAT**


1. Məhərrəmli, B. Türk dillərinin qədim leksikası. – Bakı: Xəzər Universitəsi nəşriyyatı, 2017. – 272 s.
2. Sössür Ferdinad de. Ümumi dilçilik kursu. Bakı: BDU, 2003, 408 s.
3. Асланов, В.И. К проблеме реконструкции корневых морфем // – Баку: Советская тюркология, – 1971. №2. – с. 67-75.
4. Белецкий А.А. Принципы этимологических исследований (на материале греческого языка). Киев: Издательство Киевского государственного университета им. Т.Г.Шевченко, 1950, 267 с.
5. Введенская Л.А., Колесников Н.П. Этимология. СПб: Питер, 2004. — 221 с.
6. Тронский И.М. Общеиндоевропейские языковые состояния (Вопросы реконструкции). Ленинград: Наука, 1967.
7. Топоров В. О некоторых теоретических основаниях этимологического анализа. //https://www.gumer.info/bibliotek_Buks/Linguist/topor/nek_teo.php
8. Откупщиков, Ю.В. Очерки по этимологии. – СПб.: Издательство Санкт-Петербургского государственного университета, – 2001. – 480 с.
9. Соссюр де Ф. Труды по языкознанию .– Москва: Наука, –1977.
10. Соссюр де Ф. Мемуар о первоначальной системе гласных в индоевропейских языках // Труды по языкознанию– Москва: Наука, –1977. – с.302-562.
11. Этимология / Под ред. О.Н. Трубачёва и др. М.: Наука, 1963 – 2011.
12. Этимология. Принципы реконструкции и методика исследования. Москва, Наука, 1965, 396 с.
13. https://studfile.net/preview/4668043/page:4/.


***Nurana Huseynova***

***Etymological views of Ferdinand de Saussure***

***Summary***

The article discusses the etymological views of Ferdinand de Saussure. Here the works of the great Swiss scientist in the field of etymology are listed, they are filtered through analytical analysis. The article summarizes the theoretical ideas of Ferdinand de Saussur in the field of etymology, and shows the important role of these ideas in solving the fundamental issues of etymology. The research proves that Ferdinand de Saussure created the initial theoretical and methodological base of etymological studies. In the study, an important place is devoted to the innovative ideas of Ferdinand de Saussur in the field of etymology. It is noted that an important part of Ferdinand de Saussur's linguistic activity was devoted to the theoretical issues and methodological concepts of etymological research. In the article, the importance of the laryngeal theory, which is the basis of the foresight in the creativity of the genius scientist, is brought to the readers' attention. It is proven here that Ferdinand de Saussure laid the foundation of a fundamental concept in theoretical and general linguistics with his theory of laryngeal sounds, which had a great resonance in Indo-European and world linguistics in general. The article shows that Ferdinand de Saussure's laryngeal theory became an important turning point in the reconstruction of the initial sounds in Indo-European languages after the Hittite writings were read.

***Нурана Гусейнова***

***Этимологические взгляды Фердинанда де Соссюра***

***Резюме***

В статье рассматриваются этимологические взгляды Фердинанда де Соссюра. Здесь перечислены работы великого швейцарского учёного в области этимологии, они отфильтрованы посредством аналитического анализа. В статье обобщены теоретические идеи Фердинанда де Соссюра в области этимологии, показана важная роль этих идей в решении фундаментальных вопросов этимологии. Исследование доказывает, что Фердинанд де Соссюр создал исходную теоретическую и методологическую базу этимологических исследований. В исследовании важное место отведено новаторским идеям Фердинанда де Соссюра в области этимологии. Отмечается, что важная часть лингвистической деятельности Фердинанда де Соссюра была посвящена теоретическим вопросам и методологическим концепциям этимологических исследований. В статье доводится до сведения читателей значение теории гортани, которая является основой дальновидности в творчестве гениального ученого. Здесь доказывается, что Фердинанд де Соссюр своей теорией гортанных звуков заложил основу фундаментальной концепции в теоретическом и общем языкознании, имевшей большой резонанс в индоевропейском и мировом языкознании в целом. В статье показано, что теория гортани Фердинанда де Соссюра стала важным поворотным моментом в реконструкции ранних звуков индоевропейских языков после прочтения хеттских письмен.

***Çapa tövsiyə edən:*** ***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***

***Rəyçilər:*** ***professor Məsud Mahmudov***
***dosent Baba Məhərrəmli***